*Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu,* *p-ISSN: 2410-5600*
*Əlyazmalar yanmır / Manuscripts don't burn № 2, 2025*

https://doi.org/10.59849/2410-5600.2025.2.108

UOT: 94

**Fatma Məmmədova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç. 26*
*e-mail: fatmamemmedova08@yahoo.com*

# ZƏFƏR GÜNÜNÜN AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ İDEOLOGİYASI SİSTEMİNDƏ YERİ VƏ FUNKSİYASI

**Xülasə**

Məqalədə 44 günlük Vətən müharibəsinin səbəbləri, gedişatı və Azərbaycanın tarixi Zəfəri haqqında məlumat verilir. Qəhrəman şəhidlərimizin və qazilərimizin rolu, eləcə də Ali Baş Komandanın qətiyyətli addımları vurğulanır. Məqalə xalqımızın birlik və iradəsinin ölkəmizin ərazi bütövlüyünü təmin etməsində həlledici rol oynadığını göstərir.

***Açar sözlər:*** *Zəfər günü, Vətən müharibəsi, Qarabağa qayıdış, şəhidlər, qardaş ölkə*

## Giriş

*Zəfər yalnız top səsləri, atəş səsləri və qələbə yürüşləri deyil, zəfər susmuş torpağın dilə gəlməsidir, səssiz duaların, göz yaşlarının və qəhramanlıq hekayələrinin ifadəsidir. Bu torpağın hər qarışı bir şəhidin ürək döyüntüsünü saxlayır hər daş bir vətən sevgisi ilə doludur. Biz bu gün təkcə tarixi bir anı qeyd etmirik, biz həm də millət olaraq kim olduğumuzu, nə uğrunda yaşadığımızı və nəyə görə mübarizə apardığımızı xatırlayırıq. Zəfər Günü həm də sükutun fəlsəfəsidir. Çünki ən böyük qəhramanlıq, adətən görünməz qalır; sükutla, səssizliklə, amma daim yaşanan bir güclə ifadə olunur.*

Bizə bu qəhrəmanlıq hisslərini yaşadan, bu gücün təməlini qoyan cənab prezdentimiz İlham Əliyev və onun dəmir yumruğunda toplaşan gənclərimizin şücaəti sayəsində canından keçən şəhidlərimizə borcluyuq. Düşmənlə üz-üzə yalnız qələbə barədə düşünür, vətənpərvərlikləri, döyüş ruhları, hazırlıqları, əzmkarlıqları ilə işğalçının qorxulu yuxusuna çevrilirdilər. Onların azad edilmiş məskənlərimizdə üçrəngli bayrağımızı qaldırmaları, dövlət himnimizi oxumaları Azərbaycan gəncliyinin Vətən qarşısındakı müstəsna xidmətlərinin tarixdə əbədiləşmiş mənzərəsidir. Bu mənzərədə tarix hər zaman Azərbaycan xalqının yenilməzliyini görəcək. Həmin günlərdə bəşəriyyətə aid bir çox gerçəklər Azərbaycanın diktəsi ilə dünyaya çatdırıldı. 44 günlük müharibənin gerçəkləri göstərdi ki, hansısa xalqların ermənilər kimi özlərindən saxta nağıllar uydurub, regional münaqişələrə zəmin hazırlaması dövrü daha keçmişdə qalıb. Artıq bu cür saxta miflərə heç kim inanmır. Hər bir şəhid bir tarixdir. Onların adları yalnız kitab səhifələrində yazılmır; onlar torpağın ritminə, xalqın qəlbinə və hər nəfəsimizə hopur. Zəfərin sükutu yalnız döyüş meydanında deyil; o, şəhidlərin ailələrində, anaların dualarında, bacıların göz yaşlarında davam edib. Bu sükut, qələbənin ən böyük ifadəsidir – görünməz, amma hər an hiss olunur.

Bu hissləri öz xalqı ilə birlikdə yaşayan Prezident İlham Əliyev yalnız simvol deyil, zəfərin planlayıcısı və ruh vericisidir. Onun rəhbərliyi altında xalq birləşdi, strateji addımlar atdı və hər bir qələbənin arxasında qətiyyət və birlik dayandı. Ölkə prezidenti 2020-ci ildə Azərbaycanın milli maraqlarını qoruyaraq müharibənin diplomatik və hərbi tərəflərini balanslı şəkildə idarə etmişdir. Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad

etdi. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillərdən oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı, daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Bu gün Şuşada dalğalanan üçrəngli bayraq min illərin arzusunu gerçəkləşdirib. Şəhidlərimizin ruhu qarşısında baş əyir, onların əmanətinə sahib çıxırıq. Qarabağda həyat yenidən bərpa olunur, Şuşada musiqi, Füzulidə tikinti, Ağdamda həyat səsləri eşidilir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəxsən azad olunmuş ərazilərin inkişafına rəhbərlik edirlər. Yeni yollar salınır, məktəblər, hava limanları, məscidlər, mədəniyyət ocaqları tikilir. Azad edilmiş ərazilərdə yüksək sürətli kommunikasiya, "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyaları tətbiq edilir. 2021-2024-cü illər ərzində azad edilmiş torpaqların bərpası üçün təqribən 17.6 milyard manat dövlət büdcəsindən ayrılmışdır. Bu torpaqlarda turizim potensialı, kənd təsərrüfatı, sənaye zonaları və bəzi layihələr planlaşdırılır. Bu ərazilər yenidən iqtisadi aktiv mərkəzlərə çevrilməsi hədəfi ilə inkişaf edir. Azad edilmiş torpaqlarda görülən bütün bərpa və quruculuq işlərinin əsas məqsədi Qarabağ və Şərqi Zəngəzuru Azərbaycanın sosial-iqtisadi həyatına tam şəkildə qaytarmaq, bu bölgələri yaşamaq, işləmək və inkişaf etmək üçün müasir bir məkana çevirməkdir. Azərbaycan xalqının bu qədər yüksəlişini gözü götürməyən məğfur düşmənin nəinki 1994-cü ildən bu yana, hətta daha əvvəllərdən belə xalqımıza etmədiyi zülüm qalmamışdır, qocalarımıza az yaşlı uşaqlarımıza, qadın qızlarımıza yaşatdıqları psixoloji travmalar danılmaz faktlardır. Tarixi yaddaşa qayıdış və tarixi araşdırmaların izlənilməsi göstərir ki, erməni millətçilliyinin və erməni təcavüzkarlığının kökləri çox qədimlərə gedib çıxır. Bu bəlanın tarixini əslində elə erməni xalqının formalaşdığı tarixdən də götürmək olar. Çünki milli eqoizm və xudbinliyi, yalan və iftiranı, ətraf xalqlara qarşı kin və ədavəti erməni xalqının ilkin tarixinə həsr edilmiş ən qədim erməni yazılı mənbələrində də görmək mümkündür. Milli müstəsnalıq mövcud olan erməni yazılı mənbələrinin, demək olar ki, hamısının aparıcı xəttidir. Həmin xətt tək qədim mənbələrə xas deyil və sonradan uzun əsrlər boyu ictimai şüura təsir edə biləcək əsərlərdə daha yaradıcı şəkildə davam etdirilmiş və indiki vəziyyətə çatdırılmışdır. Bu sahədə bütün erməni müəlliflərində təsəvvüredilməz bir yekdillik və həmfikirlilik vardır. Ancaq erməni yazarları bunu da yaxşı bilirlər ki, mənbələrdə və tarixi ədəbiyyatda onlar haqqında söylənilənlər heç də onların söylədikləri ilə üst-üstə düşmür. Erməniləri az-çox yaxından müşahidə edənlərin yazdıqları bu xalqın malik olduğu irsi keyfiyyətləri daha yaxşı və obyektiv xarakterizə edir. Bu yazılanlar həm də bu xalqın müxtəlif təbəqələrinin milli naqisliyini təsdiqləyir, milli zəmində törədilən qeyri-insani əməllərinin səbəblərini anlamağa kömək edir. Başqa xalqın heysiyyətinə toxunmaqla onun adına, tarixinə, mədəniyyətinə qara yaxmaqla və ya öz millətini tərifləməklə, onun müstəsnalığı, fədakarlığı, əzəməti haqqında uzun-uzadı sağlıqlar qoşmaqla öz böyüklüyünü təsdiqləmək mümkün deyildir. İndi kimsəyə sirr deyil ki, erməni siyasətbazları və kitab həvəskarlarının məqsədi uydurma xəyallara don geydirmək və çox böyük ərazilərə iddiada haqlı olduqlarını başqalarına qəbul etdirməkdir. Şüurlu insanın təsəvvür edə bilməyəcəyi ərazilərə göz dikmək və onu ələ keçirmək erməni millətçiliyinin tarixi xəstəliyidir. Bu istiqamətdə əl atılan təcavüzkarlığın mahiyyətinin gizlədilməsi üçün ortaya atılan bəhanə isə həmin ərazilərin tarixən ermənilərə məxsus olduğunu "sübut etməkdir". İ.Çavçavadze bununla bağlı belə yazır: *"Bütün bunlara baxmayaraq, erməni tarixçiləri yenə də çərənləyir və heç vaxt yaşamadıqları yerin sakinləri olurlar. Məgər aydın deyil ki, bu dayaz alimlər dünyanı inandırmaq istəyirlər ki, guya bu yerləri tutmağa onların tarixi haqqı var?..."* Bəlkə erməni alimlərinin gördükləri yuxulardır. Amma gördükləri o yuxudan oyanmaq zamanı gəlib çatdi. Xalqımızın birliyi və Azərbaycan xalqınının xilaskarı cənab Prezident İlham Əliyevin siyasəti nəticəsində Qarabağ problemi həll olundu.

Bu gün ölkəmiz yalnız regionun deyil, eləcə də dünyanın ən güclü dövlətlərindən biridir. İstər iqtisadi, istər siyasi, istərsə də uğurlu idarəçilik modelinin tətbiqində Azərbaycan fenomeni dünyada

öz sözünü deməkdədir. Hər ötən dövr ərzində ölkəmiz böyük inkişaf yolu keçərək tarixi nailiyyətlər qazanıb. Və bu nailiyyətlərin qazanılmasında Lider amili başlıca rol oynayır. Bu gün Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin son 21 il prezidentlik fəaliyyəti ərzində apardığı uğurlu daxili və xarici siyasət Azərbaycanı bugünkü qüdrətinə çatdırdı. Beləliklə, Ümummilli Lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli bir dövrünü yaşayır. Bundan sonrakı mərhələlərdə Azərbaycan daha da qüdrətlənəcək, dünyada nüfuzunu daha da artıracaq. Çünki Azərbaycan xalqı sözü ilə əməli bir-birini tamamlayan Prezident İlham Əliyevə güvənir. Azərbaycan Prezidentinin sözləri və əməlləri isə Onun xalqın dəstəyindən güc alan lider olduğunu nümayiş etdirir. Elə xalq-lider birliyi, vəhdəti Azərbaycanın həmrəylik və qüvvət simvolu kimi "Dəmir yumruq" ifadəsində də öz rəmzi mənasını tapır. Regionun lider dövlətinin Lideri xalqımızın qürur mənbəyi, ümid yeri və güvən ünvanı olmaqla yanaşı, adını dünya tarixinə əbədi yazdırmış fenomendir!

Azərbaycan Prezidenti qeyd edib ki, "Bizim sözümüz imzamız qədər keçərlidir". Keçərli olduğu qədər həm də dəyərlidir. İlham Əliyev imzası Azərbaycan xalqının parlaq gələcəyinin, Azərbaycan dövlətinin yüksəlişinin ifadəsidir. Nəyi, nə zaman və necə etməyi hamıdan yaxşı bilən qətiyyətli və qüdrətli Lideri olan Azərbaycanı heç kim və heç nə dayandıra, öz haqlı yolundan döndərə bilməz. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, *"Bizi heç kim, neç nə və heç bir qüvvə dayandıra bilməz!"*

İlham Əliyev təkcə müzəffər Ali Baş Komandan deyil, bütün dünya azərbaycanlılarının milli birliyini təmin edən, onları Bütöv Vətən ideyası ətrafında birləşdirən tarixi bir missiyanın lideri, Böyük Zəfərimizin şanlı memarıdır. Bəli, məhz 2020-ci il noyabrın 8-də Zəfərə qovuşduğumuz gün kimi Azərbaycanın şanlı tarixinə yeni səhifə yazıldı. Beləliklə 30 illik ədalətsizliyin bərqərar olunmasına, hərbi işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsinə, müqəddəs bayrağımızın Azərbaycanın bütün güşələrində dalğalanmasına nail olduq!

Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Zəfər tariximizin bu parlaq və unudulmaz səhifələrini vərəqlədikcə qürur duyuruq. Gələcək nəsil də bu igid və qəhrəman övladlarımızla fəxr edərək onlardan nümunə götürəcəklər. Bu qələbə təkcə Ermənistan üzərində deyil, həm də ölkəmizə qarşı qeyri-dost münasibəti bəsləyən, bütün vasitələrlə təzyiqlər göstərməyə çalışan haqsız qüvvələr üzərində Zəfərdir. Bütün dünya – bizə dəstək olan və olmayan hər kəs Azərbaycanı qalib ölkə kimi tanıdı. Azərbaycanın şanlı Zəfəri, Ermənistanın isə acınacaqlı məğlubiyyəti "DQMV"-nin statusunun müəyyən edilməsi məsələsinin üstündən birdəfəlik xətt çəkdi, tarixi Azərbaycan torpaqlarında yeni erməni dövlətinin qurulması planlarını darmadağın etdi.

Bu qələbədə hər zaman yanımızda olan sevincimizi öz sevincləri kimi görən doğma Türkiyəmizi də unutmaq olmaz. Xalqlarımız və ölkələrimiz arasında tarixdə bənzəri olmayan qardaşlıq münasibətlərinin ən möhtəşəm nümunələri dar gündə bir-birimizə dəstək olmağımızdır. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan-Türkiyə əlaqələri son illər ən yüksək səviyyəyə çatıb. Prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluq münasibətləri ölkələrimiz və xalqlarımız arasındakı münasibətlərin belə yüksək səviyyəyə çatmasında mühüm rol oynayır. Türkiyə-Azərbaycan əlaqələri eyni zamanda, bütün Türk dünyası üçün də mühüm rol oynayır. Ölkəmizin ərazi bütövlüyünün təmin olunması, torpaqlarımızın otuz ilə yaxın davam edən işğalına son qoyulması ilə nəticələnən Vətən müharibəsi Azərbaycan-Türkiyə münasibətlərinin tarixində tamamilə yeni səhifə açdı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında Azərbaycana açıq, dəqiq və birmənalı dəstək ifadə etməsi nəinki xalqımızı ruhlandırdı, eyni zamanda, müharibəyə müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı. Bu tarixi Qələbənin təntənəsi olan Zəfər paradında Azərbaycan və Türkiyə prezidentləri çıxışlarında dünyaya xalqlarımızın və ölkələrimizin qardaşlığının sarsılmazlığı və daim bir-birinin yanında olmaları barədə çox mühüm və aydın mesajlar verdilər. Qardaş ölkələrimizin dövlət başçılarının Zəfər paradında tarixi çıxışları qələbəmizin möhtəşəmliyini bir daha dünyaya çatdırdı. Türkiyə Azərbaycan Ordusunun ən müasir tələblər səviyyəsində modernləşdirilməsinə də fəal dəstək göstərib. Qardaş ölkələrimizin ordularının peşəkarlığının artırılması məqsədilə mütəmadi qaydada genişmiqyaslı hərbi

təlimlər keçirilir. Dövlət başçıları – Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan beynəlxalq arenada ortaq mövqe nümayiş etdirir, çoxtərəfli platformalarda bir-birini dəstəkləyir. Azərbaycan ilə Türkiyə arasında formalaşmış strateji ittifaq təkcə iki ölkənin rəsmi münasibətləri çərçivəsində qalmır. Bu münasibətlərin təməlində dərin tarixi köklər, ortaq dil, mədəniyyət və mənəvi dəyərlər dayanır. "Bir millət, iki dövlət" prinsipi artıq sadəcə şüar deyil, real siyasət və əməli əməkdaşlıq modeli kimi çıxış edir.

**Nəticə**

*Qeyd etmək istəyirəm ki, 2020-ci ilin 8 noyabr tarixi – Şuşanın işğaldan azad edildiyi gün bütün Azərbaycan xalqı üçün Zəfər günü kimi yadda qaldı. 44 günlük Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq.*

**Ədəbiyyat siyahısı:**

1. N.Məmmədov. İkinci Qarabağ müharibəsi; Zəfər salnaməsi. Bakı, 2022-ci il. -230s.
2. M.Süleymanov. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı, "Hərbi" nəşriyyat, 2008-ci il. -398s.
3. İ.Əliyev. Qarabağ zəfəri - Azərbaycanın şanlı tarixi. Bakı, "Azərnəşr", 2021-ci il.-240s.
4. L.Məmmədova. "Şəhidlik zirvəsi və vətənpərvərlik motivləri müasir Azərbaycan poeziyasında". "Ədəbiyyat və İncəsənət" qəzeti. 2022-ci il. -156s.
5. E.Quliyev. Azərbaycan xalqının milli həmrəyliyi və Zəfər ideyası. Gəncə, "Elm" nəşriyyatı, 2022-ci il. -175s.
6. https://sesqazeti.az/news/politics/1111113.html
7. **https://president.az/az/articles/view/58470**

**Fatma Mammadova**

**The place and function of victory day in the system of national ideology of the Republic of Azerbaijan**

***Summary***

This article provides information about the causes, course, and Azerbaijan's historic Victory in the 44-day Patriotic War. It highlights the role of our heroic martyrs and veterans, as well as the decisive actions of the Commander-in-Chief. The article demonstrates that the unity and determination of our people played a crucial role in ensuring the territorial integrity of our country.
***Keywords:*** *Victory Day, Patriotic War, return to Karabakh, martyrs, brotherly country*

*Tarix üzrə fəlsəfə doktoru, dosent* ***Aynur Hacıqədirli***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*